**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# QƏRAR

**№3**

**Bakı şəhəri** **13 dekabr 2018-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Şahin Əvəzağa oğlu Abdullayevin Salyan Rayon Statistika İdarəsinin rəis müavini vəzifəsinin tutulması üçün 2018-ci il noyabrın 19-da keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Abdullayev Şahin Əvəzağa oğlu Salyan Rayon Statistika İdarəsinin rəis müavini vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2018-ci il 01 oktyabr tarixində elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 2018-ci il noyabrın 19-da Dövlət Statistika Komitəsi aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi müdirinin müavini Toğrul Əcəlov, Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat şöbəsinin müdiri Nərminə Bayramova və müstəqil ekspert Araz Qədiməliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Abdullayev Şahin Əvəzağa oğluna müsahibə komissiyasının üzvlərinin hər biri tərəfindən 14 bal verilmiş və nəticədə iştirakçı 14 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 20.11.2018-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi N.Bayramovanın rəyinə əsasən namizəd müsahibə proqramları üzrə verilən sualları cavablandırmaqdan yayınmış, komissiya üzvləri tərəfindən namizədin suallara konkret cavab verməsi tövsiyə edilmişdir. Lakin bu tövsiyələrə baxmayaraq, namizəd sualların əksəriyyətinə səhv və yaxud natamam cavab vermiş, konkretlikdən uzaq olmuşdur. Müstəqil ekspert A.Qədiməliyevin rəyinə əsasən namizəd müsahibə proqramları üzrə verilən suallara dəqiq cavab verməyərək ümumi xarakterli cavablar verməklə kifayətlənmişdir. Müsahibə komissiyasının digər üzvü Toğrul Əcəlov bildirmişdir ki, namizəd sualların əksəriyyətinə səhv cavablar vermişdir. Namizədin müsahibə zamanı müsahibə komissiyasının üzvlərinin suallarını cavablandırarkən etdiyi səhvlər və sualları cavablandıra bilməməsi onun biliyinin, peşə hazırlığının və ümumi dünyagörüşünün iddia etdiyi vəzifənin tələblərinə uyğun olmadığını göstərir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Abdullayev Şahin Əvəzağa oğlunun 20 noyabr 2018-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Salyan Rayon Statistika İdarəsinin rəis müavini vəzifəsinin tutulması üçün 2018-ci il noyabrın 19-da keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**